# *TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI*

UOT 37.01

***Səadət Rasim qızı Abbasova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ TƏSVİRİ VƏ DEKORATİV YARADICILIQ NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Саадат Расим гызы Аббасова***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

## ЗНАЧИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗЦОВ ИЛЛЮСТРАТИВНОГО И ДЕКОРАТИВНОГО ТВОРЧЕСТВА В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБУЧЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

**Saadat Rasim Abbasova**
*PhD in pedagogy*
*leading researcher Institute of Education of the Republic of Azerbaijan*

## THE İMPORTANCE OF USİNG SAMPLES OF İLLUSTRATİVE AND DECORATİVE ART İN İMPROVİNG THE QUALİTY OF EDUCATİON İN SECONDARY SCHOOLS

**Xülasə:** Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün , emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir və incəsənət əsərlərinə, fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.
***Açar sözlər**: təsviri sənət, incəsənət, dekorativ sənət, rəsm, şagird.*

**Резюме:** В этой статье рассматриваются иллюстративные и декоративные художественные композиции, отображающиеся в произведениях и явлениях изобразительного искусства, которые обеспечивают эстетическое удовольствие, улучшение и обогащение эмоциональных чувств у школьников и служащие показателем оценки эстетической красоты и их реакции на нее.
***Ключевые слова**: изобразительная деятельность, искусство, декоративная деятельность, рисование, ученик.*

**Summary:** This article discusses illustrative and decorative art compositions that are displayed in works and phenomena of visual art, which provide aesthetic pleasure, improvement and enrichment of emotional feelings among schoolchildren, and which serve as an indicator of aesthetic beauty and their response to it.
***Key words**: visual art, art, decorative art, drawing, student.*

Təsviri sənət incəsənətin bir növüdür. Xalq arasında incəsənət sözünün mənası bacarıq, ustalıq deməkdir. Təsviri sənət hər hansı bir əşyanı fəzada düzgün qeyd etmək və yaxud fikrindən keçəni təsvir etmək bacarığıdır. Təsviri sənət deyəndə insanın bədii yaradıcılığı nəzərdə tutulur. Təsviri sənətə daxildir:

Rəsm, qrafika, boyakarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət-bəzən memarlıq.

Təsviri sənətin digər əsas növlərindən biri də dekorativ tətbiqi sənətdir. Bu sənət növü

məişətdə işlədilmək üçün bədii məmulatlar hazırlayan yaradıcılıq sahələrini əhatə edir. Dekorativ tətbiqi sənət əsəri hazırlandığı materiala və işlənmə texnikasına görə müxtəlif olur Dekorativ sənət əsərlərinin naxış bəzək və rəsmlərində məxsus olduğu xalqın mənəvi aləmi, yaşayış tərzi bədii-estetik görüşləri adət və ənənələri əks olunur.

Məmulatların üzərinə vurulan bəzəklər onu bədii cəhətdən daha rövnəqli göstərdiyindən məişət əşyaları çox vaxt məhz bəzəklərinə görə dekorativ tətbiqi sənət əsəri hesab olunur.

Dekorativ tətbiqi sənət əsərinin tərtibatında ornamentdən və təsviri sənətin üsullarından üsullarından istifadə olunur. Ən erkən çağlardan meydana gəlmiş dekorativ tətbiqi sənət əsrlər boyu xalqların mühüm bir çox xalq üçün isə əsas bədii yaradıcılıq sahəsi olmuşdur.

Dekorativ tətbiqi sənət şərq ölkələrində , o cümlədən Azərbaycanda da qədim vaxtlardan inkişaf etmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, dekorativ tətbiqi sənətin əsas elementi olan ornamental kompozisiyalar formasına görə aşağıdakı növlərə bölünürdü:

- həndəsi ornament; tədricən texniki və simvolik ornamentlərdə xətt və ləkələr nisbətən mürəkkəbləşməyə başlayır.
- bitki ornamenti; həndəsi ornamentlərdən sonra ən geniş yayılmış ornament bitki ornamentlərini hesab etmək olar.
- kalliqrafik ornament: Bu ornament ayrı-ayrı hərf və ya mətn elementlərindən təşkil olunur-fantastik ornament: belə ornamentin əsasını uydurulmuş əksər hallarda mifoloji tərkibi olan təsvirlər təşkil edir.
- astroloji ornament: o, ulduz, səma, günəş bulud və göy cisimlərini təsvir edən ornamentlərdən ibarətdir.

Dekorativ tətbiqi sənətin əsasını təşkil edən ornamental kompozisiya çoxəsrlik dövr keçərək zəngin çalarlar və müxtəlif motivlər əldə etmişdir.

Dekorativ tətbiqi sənət sahələrini analiz edərək tədqiqatçı alimlər, xalçalar, keramik məmulatlar, geyimlər, bədii tikmələr, aksessuarlar, xüsusilə zərgərlik məmulatları, interyerlərində qorunmuş eyni mənşəli-nəbati, həndəsi, heyvan mənşəli və s ornamentləri qruplaşdırmışdır.

Təsviri incəsənət fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin zənginliyini və rəngarəngliyini şagirdlərə bədii təsvirlər (görüntülər obrazlar) vasitəsilə əyani şəkildə aşılamaq onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.

Təsviri fəaliyyət şagirdləri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını onların vəhdətini gözəlliyini hiss etməyə və bu hissiyyatları təsvirlərdə əks etdirməyə imkanlar yaradır. Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir.

Təsviri incəsənət fəaliyyəti şagirdləri məkan və forma ölçülərini vizual obrazlarda əks etdirməyə istiqamətləndirir.

Təsviri və dekorativ yaradıcılıq təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsvir fəaliyyəti şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq gerçəkliyi dərk etmək, obrazlı və düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarının təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.

İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilməsində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır.

Dekorativ yaradıcılıq şəxsin bəzəyə olan təbii tələbatını ödəyir, və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə qüvvətli təsir göstərir.

Dekorativ kompozisiya və dizayn işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkanlar yaradır.

Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəməsini təmin edir.

Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir. İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.

Azərbaycan təsviri və dekorativ tətbiqi sənəti yaxın və orta şərq xalqlarının incəsənəti tarixinin ən maraqlı səhifələrindən birini təşkil edir. Bu sənət günümüzədək uğurlu inkişaf yolu keçib. Xalq dekorativ –tətbiqi sənət ustalarının yaratdıqları əl işləri qədim tariximizin yaddaşından silinməyən bədii nümunələr kimi əbədi qalaraq yaşayır.

Dekorativ-tətbiqi sənət əsərləri növlərinə xalçaçılıq, batika (kəlağayı) qobelen (keramika) toxuma və bədii tikmə, zərgərlik, bədii şüşə, bədii oyma (ağac, metal, daş, sümük üzərində oyma) və s aiddir. Dekorativ tətbiqi sənətə el arasında "Xalq sənəti" də deyilir. Xalq sənəti xalqın əməyi sayəsində yaranıb onun həyatını təmin edən və özündə xalqın bədii zövqünü əks etdirən təsviri və tətbiqi sənətə deyilir.

Azərbaycan təsviri və dekorativ tətbiqi sənəti yaxın və orta şərq xalqları incəsənəti tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Ustad sənətkarların rəhbərliyi altında işləyib yaradan təsviri və tətbiqi sənət həvəskarları milli və regional bədii ənənələri davam etdirərək onları daim Şərq incəsənətindəki başqa məktəblərin görkəmli nailiyyətləri ilə daha daha da zənginləşdirirlər. Onlar öz sehrli fırçaları və digər sənət alətləri ilə şux təntənəli təsviri və dekorativ forma əsasını rəng simfoniyası təşkil edən dərin emosional təsir qüvvəsinə malik ifadə vasitələri axtarıb tapırlar. Beləliklə zaman-zaman xalq sənətinin milli xüsusiyyətlərinə uyğun olaraq müxtəlif janrlarda işləyən həvəskar sənətçilərdən görkəmli sənət ustaları meydana gəlir. Xalq dekorativ-tətbiqi sənət ustalarının yaratdıqları əl işləri qədim tariximizin yaddaşından silinməyən bədii nümunələr kimi hələ də yaşamaqdadır.

**Problemin aktuallığı** - ümumtəhsil məktəblərində təlim keyfiyyətinin əhəmiyyəti müəyyənləşdirilmişdir.

**Problemin elmi yeniliyi** - ümumtəhsil məktəblərində təlim keyfiyyətinin yüksəldilməsində təsviri və dekorativ yaradıcılıq nümunələrindən istifadəsi işinin mövcud vəziyyəti öyrənilib, ümumiləşdirilir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, ümumtəhsil məktəblərində təlim keyfiyyətinin yüksəldilməsi istiqamətində təsviri və dekorativ yaradıcılıq nümunələrindən istifadənin əhəmiyyətini, imkanlarını öyrənmək bu istiqamətdə müəllimlərə öz fəaliyyətini qurmaq zəruridir.

**Ədəbiyyat:**

1. Təsviri incəsənət. Ümumtəhsil məktəblərinin 1-VII sinifləri üçün proqram Bakı: Kövsər 2007.
2. Rüstəmov C .A. Təsviri incəsənətin tədrisi metodikasına dair praktik məşğələlər Bakı, 1997.

**E-mail**: lale-38@ mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok.* **İ.H. Cəbrayılov,** *ped.ü.fəls.dok., dos.* N.Ş. Muradova
**Redaksiyaya daxil olub:** 04.10.2018.